

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 49 (23.461)

12 mart 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

## Rəsmi xronika

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun martın 11-də rəsmi qarşılanma mərasimi olub.

Dövlətimizin başçısı Türkmənistan Prezidenti ilə təkbətək görüşüb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Martın 11-də Prezident İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi keçirilib.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 mart 2020-ci il tarixli Sərəncamı ilə xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçuları təltif edilmişdir. Təltif olunanlar arasında Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları da vardır.

**Quliyev Qəşəm Qalib oğlu – kapitan**

**Yusifov Məmməd Ələkbər oğlu – kapitan**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## "İxrac ili" muxtar respublikanın istehsalçı imicinin formalaşmasına öz töhfəsini verəcək



*Sahibkarlığın inkişaf etdirilməsi muxtar respublikada mühüm sahələrdən biri hesab olunur. Son illərdə dövlət tərəfindən bu sahənin inkişafı üçün böyük addımlar atılıb, mühüm layihələr həyata keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər il sahibkarlarla görüşməsi, onlara tapşırıq və tövsiyələrini verməsi, eləcə də özəl sektorun inkişafı ilə əlaqəli olan dövlət qurumları qarşısında mühüm vəzifələr qoyması muxtar respublika iqtisadiyyatında hərtərəfli inkişafın əldə olunmasına şərait yaradıb. Ali Məclisin Sədri sahibkarlarla son görüşündə də bu mövzuya toxunaraq deyib: ***"…Muxtar respublikada sahibkarlığın inkişafı üçün bütün tədbirlər görülmüşdür. Qalır yaradılan imkanlardan səmərəli istifadə etmək. Aid dövlət qurumları yerli xammala əsaslanan və tələbatı ödəyən istehsal sahələrinin yaradılması istiqamətindəki səylərini artırmalı, biznes-planlar düzgün hazırlanmalı, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrə yol verilməməlidir. Sahibkarlar da onlar üçün yaradılmış işgüzar mühitdən səmərəli istifadə etməli, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsal olunmalıdır…"***

Məlum olduğu kimi, 2020-ci il muxtar respublikada "İxrac ili" elan olunub. Bununla bağlı imzalanmış sərəncamın preambula hissəsində qeyd olunur ki, *"Naxçıvan Muxtar Respublikasında 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi istehsalçıların xarici bazarlara çıxışlarını və bu istiqamətdə təşviq tədbirlərinin artırılmasını zəruri etmişdir…"*

Vurğulayaq ki, bu gün muxtar respublikada, ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötüb. Xarici ticarət dövriyyəsi həcminin yarım milyard dollara yaxınlaşması, son 10 ildə bu dövriyyədə müsbət saldonun qorunub saxlanılması və ildən-ilə saldo həcminin artması ixrac üçün əlverişli şərait yaradır. Nəzərə alaq ki, təkcə bu ilin yanvar ayında xarici ticarət dövriyyəsi 32 milyon 828 min 500 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb, ixracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 24 milyon 45 min 800 ABŞ dolları təşkil edib. Eyni zamanda bu ilin ilk ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulları istehsalında 1 faiz, kənd təsərrüfatında 3,1 faiz artımın qeydə alınması muxtar respublikanın ixrac potensialının davamlı olaraq yüksəlməsini göstərir. Məhz bu cür iqtisadi şəraitdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi çox böyük əhəmiyyət daşıyır.

Məlumdur ki, məhsul ixracı hər bir ölkə üçün mühüm istiqamətlərdən sayılır. Çünki ixrac təkcə məhsul satıb vəsait əldə etməklə məhdudlaşmır. İxrac bir ölkənin tanınmasına, onun həm iqtisadi, həm siyasi nüfuzunun artmasına təsir göstərən vasitədir. İxrac, yeni bazarların, deməli, yeni ölkələrin "kəşf edilməsi", həmin ölkələrin məişətinə, həyat tərzinə nüfuz etmək deməkdir. Bu gün dünya iqtisadi bazarında müxtəlif sektorlar üzrə kütləyə, sözün həqiqi mənasında, diktə edən istehsalçı ölkələr var. Yüksək rəqabətqabiliyyətli məhsul istehsalına və bu məhsulun əlçatanlığı üçün ən müasir vasitələrdən yararlanan belə istehsalçıların istehlakçılara verdiyi yalnız bir vəd var: keyfiyyətli məhsul istehsal etmək! Buna görə də muxtar respublika rəhbəri sahibkarlarla görüşündə daim iqtisadi dayanıqlılığın əsasının yalnız rəqabətədavamlı məhsul istehsalında olduğunu bildirir və bunun üçün lazımi şəraitin yaradıldığını nəzərə çatdırır. Rəqabətədavamlı məhsul istehsalı isə həm daxili bazarın tələbatını ödəmək, həm də məhsul ixracını həyata keçirmək üçün əsas şərtdir. Elə Ali Məclis Sədrinin sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planının ilk bəndi də yerli xammala əsaslanan rəqabətqabiliyyətli müəssisələrin yaradılmasını nəzərdə tutur.

Məlum tədbirlər planında qarşıya qoyulan vəzifələrin hər biri özlüyündə mühüm məqsədləri müəyyənləşdirir. Bu vəzifələrin hər biri haqqında ayrılıqda bəhs etmək çox vaxt aparsa da, bunu ümumiləşdirərək belə nəticəyə gəlmək mümkündür:

1. Muxtar respublikada aqrar və sənaye istehsalı üçün böyük potensial var və bu potensial rəqabətqabiliyyətli məhsul istehsal etməyə imkan verir.

2. Çoxsaylı ailə təsərrüfatlarının, o cümlədən kiçik və orta sahibkarlıq subyektlərinin ixrac məhsullar istehsal etməsinə dövlət tərəfindən lazımi dəstək göstərilir və bu, qarşıdakı dövrdə yenə də davam etdiriləcək.

3. İxrac məhsulları istehsalçılarına həm vergi, həm də gömrük rüsumları ilə bağlı böyük güzəştlər tətbiq ediləcək, eyni zamanda ixrac məhsul istehsalı üçün xammal idxalına və məhsulların qablaşdırılmasına da güzəştli tariflər nəzərdə tutulub.

4. Sahibkarlar ixrac olunacaq məhsullar üçün güzəştli kreditlər, bazar araşdırmaları, xarici ölkələrdə ticarət tərəfdaşlarının tapılması, beynəlxalq sərgilərdə iştirak etmək və sair məsələlərlə bağlı müvafiq dövlət qurumlarının köməyindən yararlana biləcəklər.

*Bir sözlə, Ali Məclis Sədrinin sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planında qarşıya qoyulmuş vəzifələr ixrac məhsul istehsalçıları qarşısında yeni və daha geniş imkanlar açır. Bütün bunlar isə onu deməyə əsas verir ki, "İxrac ili" çərçivəsində atılacaq addımlar Naxçıvanın istehsalçı region kimi imicinin formalaşmasına töhfəsini verəcək.*

✍ Səbuhi HƏSƏNOV

*Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 18 sentyabr 2019-cu il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsi yekunlaşıb.*

## Müsabiqənin müsahibə mərhələsi başa çatıb



Namizədlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (203 nəfər), Dövlət Statistika Komitəsi (95 nəfər), Təhsil Nazirliyi (67 nəfər) və Maliyyə Nazirliyi (37 nəfər) üstünlük təşkil edib.

Namizədlərin bu mərhələyə hazırlaşmaları üçün vakant vəzifələr üzrə müsahibə proqramları Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında yerləşdirilib. Müsahibə zamanı namizədə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, peşə hazırlığına və dünyagörüşünə uyğun suallar verilib. Bu mərhələdə obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertlər, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və dövlət orqanlarının nümayəndələri iştirak edib, müsahibə prosesinin videoçəkilişi aparılıb. Müsahibənin nəticələri haqqında məlumatlar gündəlik olaraq Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında yerləşdirilib.

Qeyd edək ki, 23 dövlət orqanı üzrə müsabiqəyə çıxarılan 225 vakant vəzifənin tutulması üçün 574 namizəd sənəd təqdim etmişdi. Test mərhələsində müvafiq keçid balını toplamış 269 namizəddən 266-sı və əvvəlki müsabiqələrdə sertifikat alan 20 namizəd müsahibə mərhələsində iştirak etmək üçün sənəd vermişdi. Müsahibə mərhələsində 213 namizəd iştirak etmiş və 62 nəfər uğur qazanmışdır. Onların 24-ü qadın, 38-i kişi, 58-i isə gəncdir. Həmin şəxslərin sənədləri vakant vəzifələrə təyin olunmaq üçün dövlət orqanlarına göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Yeni qapalı suvarma şəbəkələri qurulur

Muxtar respublikada su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması istiqamətində görülən işlərin əhatə dairəsi ilbəil daha da genişləndirilir. Bu sahədə həyata keçirilən tədbirlər 2020-ci ildə də diqqət mərkəzində saxlanılır. Belə ki, Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları tərəfindən cari ilin fevral ayında 17 kilometr yeni suvarma xətti çəkilib, 240 metr yeni açıq drenaj kanalı qazılıb, 1,5 kilometr təzyiqli boru xətti təmir edilib, 37 kilometr beton və torpaq kanal, həmçinin 14 kilometr ara arxlar lildən təmizlənib. Bundan əlavə, yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularından mühafizəsi məqsədilə 590 metr istiqamətləndirici bənd salınıb.



Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 700 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, 17,3 kilometr suvarma boru xətti quraşdırılıb, 85 hidrant hovuzu tikilib. Bununla yanaşı, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 270 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb.

Kəhrizlərin və subartezian quyularının istismara yararlılığı diqqətdə saxlanılıb, 5 kəhrizdə və 35 subartezian quyusunda təmir işləri davam etdirilib, 1 yeni subartezian quyusu tikilərək balansa alınıb.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***



***Martın 12-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasından 28 il ötür. Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə hər il mart ayının 12-si Azərbaycan Respublikasının “Daxili Qoşunlar Günü” kimi qeyd olunur.***

## *12 mart Daxili Qoşunlar Günüdür*

# İctimai sabitliyin keşiyində

Ölkəmizdə Daxili Qoşunların formalaşması və inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin diqqət və qayğısı ilə Daxili Qoşunlar böyük inkişaf yolu keçmiş, hərbi hissələrin müasir standartlar səviyyəsində qurulması istiqamətində tədbirlər görülmüş, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılmışdır. 1994-cü il fevralın 8-də qəbul olunmuş “Daxili Qoşunların statusu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə Daxili Qoşunların əsas funksiyaları, vəzifələri və fəaliyyət prinsipləri müəyyən edilmişdir.

2003-cü ildən etibarən Daxili Qoşunların inkişafı yeni bir mərhələyə yüksəlmişdir. ***“Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmlənməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir”***, – deyən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan



Daxili Qoşunların təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir, bu sahənin maddi-texniki bazası getdikcə daha da gücləndirilir.

1995-ci ildə Daxili Qoşunların Naxçıvandakı “N” saylı taboru, sonradan taborun bazasında Daxili Qoşunların Naxçıvan Alayı, 2014-cü ildə isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası yaradılmışdır. Ötən dövrdə briqada qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmiş, ictimai asayişin qorunmasında zəngin xidməti təcrübə toplayaraq hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsində mühüm nailiyyətlər qazanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, genişmiqyaslı quruculuq işləri həyata keçirilmiş, hərbi hissə abad və müasir şəhərciyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada Azərbaycan Respublikası Silahlı Qüvvələrinin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının da xidməti döyüş fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir. Son illər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrinin birgə taktiki təlimlərində daxili qoşunların şəxsi heyətinin də iştirakı və verilən tapşırıqların peşəkarlıqla icrası bu hərbi hissədə əldə olunan nailiyyətlərin daha bir ifadəsidir”.***

Bu gün şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Son illər zabit-gizir ailələri üçün 60 və 45 mənzildən ibarət iki beşmərtəbəli yaşayış binası istifadəyə verilmişdir. Hazırda Şərur rayonu ərazisində yerləşən Əməliyyat Taboru üçün müasir standartlara uyğun hərbi şəhərcik və əsgəri-məişət kompleksinin tikintisi davam etdirilməkdədir. Aparılan islahatlar qarşıya qoyulan xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.

Peşə hazırlığının və təlimin keyfiyyətinin daim yüksəldilməsi, nümunəvi nizam-intizama nail olunması və muxtar respublikada dayanıqlı ictimai sabitliyin qorunması bu gün Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının qarşısında duran əsas vəzifələrdir. Şəxsi heyətin yeni silah-



lardan istifadə qaydaları üzrə bilik və bacarığı təkmilləşdirilir, müntəzəm olaraq toplantılar, səhra çıxışları və döyüş atışlı taktiki təlimlər keçirilir.

Bu gün Naxçıvan Əlahiddə Əməliyyat Briqadası qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə qadirdir. Ötən il Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə “Dövlət sərhədi pozulduqda sərhəd axtarışının keçirilməsi” üzrə taktiki və “Sarsılmaz qardaşlıq-2019” devizi altında döyüş atışlı əməliyyat taktiki təlimləri bunu bir daha təsdiq etdi. Həmin təlimlərdə aktiv iştirak edən Naxçıvan Əlahiddə Əməliyyat Briqadası qarşıya qoyulan bütün vəzifələri uğurla yerinə yetirdi. Taktiki təlimlərdə fəal iştirak edən bir neçə hərbi qulluqçu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mükafatlandırıldı.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“Gərək Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu olsun. Gərək bizim Silahlı Qüvvələrimizdə Azərbaycanın dövlətçiliyinə daim sədaqət olsun. Azərbaycanın güclü ordusu bu gün də, sabah da, yüz il bundan sonra da lazımdır. Bunun üçün planlı iş aparılmalı, peşəkar münasibət göstərilməlidir”.***

***Ümummilli liderimizin ideyalarına sadiq qalan Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, cəmiyyətin və dövlətin mənafeyini, eləcə də vətəndaşların hüquq və azadlıqlarını etibarlı qoruyacaqdır.***

**“Şərq qapısı”**

# Standartlara uyğun fəaliyyət təşviq olunur

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin və məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğunun diqqətdə saxlanılması 2020-ci ilin fevral ayında da davam etdirilmiş, ümumilikdə, məhsul nümunələrinin 145 halda, o cümlədən qida məhsullarının 140 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunmuş və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.***

Muxtar respublikaya idxal edilən uşaq qidalarının 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu müəyyən edilmişdir. Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 23 qida istehsalı müəssisəsinə, 26 ictimai iaşə və xidmət sahəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür.

Uşaq bağçalarının, məktəblərin, xəstəxanaların, təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 25 məktəbin bufetində, 4 digər təhsil müəssisəsinin bufet və yeməkxanasında, 19 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 9 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış və aşkar olunmuş bir sıra nöqsanlar yerində aradan qaldırılmışdır.

“Muxtar respublikada əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə birgə Tədbirlər Planı”nın icrasını təmin etmək məqsədilə müvafiq komissiya tərəfindən 49 təsərrüfat subyektində 176 işçinin tibbi müayinələri ilə bağlı monitorinqlər aparılmış, 18 işçi tam tibbi müayinələrdən keçmişdir. Natamam tibbi müayinədən keçmiş 158 işçiyə konkret vaxt verilməklə tam tibbi müayinədən keçmələri təmin edilmişdir. Komissiya tərəfindən 41 təsərrüfat subyektində 154 obliqat qrup işçilərdən qan nümunələri götürülmüş və müvafiq tibbi nəzarət təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində bal məhsullarının 2 halda laboratoriya analizləri aparılmış və standartlara uyğunluğu müəyyən edilmişdir. Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası çərçivəsində 2020-ci ilin fevral ayında, ümumilikdə, 6 ailə təsərrüfatına 1274 etiketin hazırlanmasında müvafiq köməklik göstərilmişdir. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət üçün məhsullardan 53 halda nümunələr götürülərək laboratoriyaya təqdim olunmuş və standartlara uyğunluğu müəyyən edilmişdir.

2020-ci ilin fevral ayında alkoqollu içkilər istehsal edən 3 müəssisədə istehsal olunan arağın 3 halda laboratoriya analizləri aparılaraq standartlara uyğunluğu müəyyən edilmişdir. 91 bərbərxana, gözəllik salonu, ət satışı mağazası və topdansatış obyektlərinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmiş, 2 gözəllik salonunda təmir işləri aparılmışdır. Monitorinqlər zamanı qanunvericiliyə uyğun olmadığından 1 informasiya xarakterli lövhənin istifadəsi qadağan edilmişdir.

Enerji içkilərinin satışına nəzarət məqsədilə yoxlamalar aparılmış, 1 adda enerji içkisinin markalanmasının sanitariya normaları və qaydalarının tələblərinə tam uyğun olduğu, 5 adda enerji içkisinin markalanmasında isə Azərbaycan dilində zəruri məlumatların olmadığı aşkar edilmiş və təsərrüfat subyektləri təlimatlandırılmışdır. Həmçinin muxtar respublikada istehsal olunan məhsulların markalanmasına nəzarət məqsədilə 12 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 5 müəssisədə istehsal olunan məhsulların etiketlərində orfoqrafik səhvlərin olduğu aşkarlanmış və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təsərrüfat subyektləri məlumatlandırılmışdır. 2020-ci ilin fevral ayında meteoroloji norma və qaydalara uyğun olaraq 481 ölçmə vasitəsi yoxlanılmışdır.

Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə 126 məişət qaz cihazına baxış keçirilmiş, təhlükəsizliyi təmin olunmayan 10 məişət qaz cihazının idxalına və satışına icazə verilməmişdir. Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

# Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər fevral ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan 20 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 512 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 114-ü əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi və yenidən rəsmiləşdirilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən ayrı-ayrılıqda araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 398 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 249-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir. Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Komanda-qərargah təlimi başlayıb

“Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı”na əsasən komanda-qərargah təlimi başlayıb.



İkitərəfli, üçpilləli komanda-qərargah təliminin ssenarisinə uyğun olaraq Naxçıvan Qarnizonu Qoşunları müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilib, birləşmə və hissələr “Təlim-döyüş həyəcan” siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılıb.

Xüsusi qoşun növlərinin birləşmələrinin də cəlb edildiyi təlimdə müasir rabitə və avtomatik idarəetmə sistemlərindən istifadə etməklə idarəetmənin bir məntəqədən digərinə ötürülməsi, mübadilə axınından səmərəli istifadənin məşqi həyata keçirilir. Ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatları planlaşdırılır.

Təlimdə əsas diqqət düşmənin qəfil hücumunun qarşısının alınması və təxribat-diversiya qruplarının məhv edilməsi zamanı qoşunlar arasında qarşılıqlı fəaliyyətlərin idarə olunmasında qərargahların və zabitlərin peşəkarlığının artırılmasına yönəldilib.

**Nəriman NƏCƏFOV**

# Elmin iqtisadiyyatda uğurlu tətbiqi gələcək inkişafa zəmanət verir

***Cəmiyyətin bütün inkişaf mərhələlərində elmi biliklərin rolu əsas olub. Tarixboyu əldə olunmuş elmi nəticələr sayəsində bəşəriyyət Daş dövründən kosmos və internet erasınadək uzunmüddətli yol keçib, daha dərin elmi araşdırmalar üçün yeni zəmin formalaşıb. Müasir qloballaşmanın bir səbəb-nəticə təzahürü kimi elmi nailiyyətlərin həm ümumbəşəri sərvətə, həm də bir rəqabət vasitəsinə çevrilməsi bu vacib sahəyə olan diqqəti həmişə ön planda saxlayır.***



Ölkəmiz qazandığı elmi nailiyyətləri ilə dünya miqyasında özünəlayiq yer tutur. Tarixən azərbaycanlı alimlər bu gün də cəmiyyətin müxtəlif sahələrində tətbiq olunan elmi yeniliklərə imza atıb, tibb, fəlsəfə, astronomiya, riyaziyyat, qeyri-səlis məntiq, mədənşünaslıq kimi sahələrdə mühüm kəşflər edib, memarlıq, pedaqogika, tarix, coğrafiya, ədəbiyyat və digər sahələrdə dərin miras qoyublar. Yaxın keçmişdə də Azərbaycan alimlərinin adları kosmik fəzanın tədqiqi, tibb və elektronikanın inkişafı ilə paralel səslənib, ölkəmiz dünyanın neft akademiyası statusuna yiyələnib. Odur ki, bu gün dünyada Azərbaycan elmi deyəndə həm elmi dəyərləri zənginləşdirən, həm də dünya elminin nailiyyətlərini sürətlə tətbiq edən bir ölkə başa düşülür. Məhz cəmiyyət və elm arasındakı üzvi əlaqələrin nəticəsidir ki, ölkəmiz müstəqillik əldə etdikdən keçən dövr ərzində qarşılaşdığı bütün xarici təhlükələri və qlobal çalxantıları çox az zərərlə aşıb, hərtərəfli inkişafa doğru inamla irəiləməkdədir.

Qədim Naxçıvan təkcə Azərbaycanın deyil, dünyanın elm və düşüncə mərkəzlərindəndir. Hələ İslam Mədəniyyətinin çiçəkləndiyi erkən orta əsrlərdə və hətta ondan əvvəlki dövrlərdə belə, naxçıvanlı alimlər dəqiq və humanitar elm sahələrindəki şöhrəti ilə dünyada tanınıblar. Bu ənənə Naxçıvanın bütün tarixi inkişaf mərhələlərində davam edib və özünün muxtariyyət tarixi ərzində burada təşəkkül tapmış elm-təhsil müəssisələri güclü kadr potensialına malik mühüm mərkəzlər kimi tanınmağa başlayıb. Belə ki, təkcə son illərin statistikasına baxsaq, görərik ki, hazırda muxtar respublikada 40 nəfərdən artıq elmlər doktoru, 300-dən çox fəlsəfə doktoru fəaliyyət göstərir. Ötən əsrin 70-ci illərindən başlayan və Azərbaycanın dövlət müstəqilliyi dövründə muxtar respublikada elm və təhsilin inkişafına ayrılan diqqət nəticəsində Naxçıvanda, demək olar ki, istənilən elm sahəsi üzrə yerli mütəxəssislər formalaşmış, naxçıvanlı elm xadimlərinin əsərləri dünyanın nüfuzlu elmi jurnallarında yayınlanmaqdadır.

Elmin inkişafının son nəticəsi onun insan rifahına necə xidmət etməsi, iqtisadi inkişafa hansı töhfə verməsi ilə qiymətləndirilir. Bu mənada, elmin iqtisadiyyata, istehsalata tətbiqi üzrə prioritetlərə baxdıqda müasir dövrdə gələcəyə yönəlmiş dəqiq proqnozların verilməsi, istehlak bazarının tələbatlarının müəyyənləşdirilməsi, regionun istehsal imkanlarının üzə çıxarılması, mövcud resurslardan maksimum səmərə və rasionallıqla istifadə olunması, alternativ iqtisadi imkanların araşdırılması kimi məsələləri görürük. Bu istiqamətlərdə aparılan elmi tədqiqatların nəticələrinin bazar iqtisadiyyatı şəraitində necə tətbiq olunması isə ümumi inkişafdan xəbər verir. Bu isə başda dövlət olmaqla, cəmiyyətdəki bütün institusional qurumları və ayrı-ayrı fərdləri də dərindən maraqlandırır. Sahibkarlar, yerli və xarici investorlar, istehsalçı, istehlakçı, kredit alan və kredit təklif edənlər, sığortaçı və vasitəçi kimi bütün iqtisadi fəaliyyət subyektləri üçün faydalı olan elmi nəticələr istifadə olunduqda, nəticədə, rəqabətqabiliyyətli son məhsul və xidmətlər əldə olunur. Dəqiq və texniki elmlərdə, informasiya texnologiyaları, humanitar inkişaf sahələrində də cəmiyyətin artan tələbi bu gün dünənkindən daha çox həcmdə elmi biliklərin əldə olunması, onların ümumiləşdirilib istifadəsi üçün nəhəng miqdarda işlər tələb edir. Bütün bunlar isə şübhəsiz, ölkəmizin iqtisadi və sosial inkişaf prioritetlərinə dərindən bələd olan və eyni zamanda da dünyadakı proseslərdən yaxşı baş çıxara bilən milli kadrların fəaliyyəti, elmi təhlil, analiz və təkliflərinin yekunlaşdırılması ilə mümkündür.

Elmin istehsalata tətbiqi bu iki vacib sahənin hər birinin inkişafına xidmət edən əsas səbəb-nəticə faktorudur. Başqa sözlə, istehsalda elmi-innovativ yeniliklər tətbiq olunduqca, elmin də maliyyələşməsi üçün əlverişli bazar imkanları yaranır. Bu mənada, elmi nəticələrin, yeni texniki avadanlıqların və texnoloji üsulların xaricdən baha qiymətə idxalı yerinə onların milli və yerli imkanlarla əvəz olunması iqtisadi təhlükəsizliyin təminini və daxili bazarın da inkişafına mühüm təkandır. Çünki təcrübə göstərir ki, dünyanın aparıcı ölkələri qazandıqları elmi dəyəri çox yüksək olan ideya və məhsulları məhz uzun müddət öz milli maraqları üçün istifadə etdikdən sonra onu başqalarına satmaq haqqında düşünürlər. Bu da, əslində, ilk baxışda göründüyü kimi xəsislik deyil, sadəcə, hər kəsin böyük xərc və çətin yollarla qazandığı beyin məhsulundan bəhrə görmək hissidir. Bu xərclər isə kifayət qədərdir. Belə ki, müasir dövrdə dünyanın tanınmış innovasiya yönümlü firmalarının təkcə elmi araşdırmalara ayırdığı xərcləri keçmiş sovet dövlətinin kosmik proqramlara ayırdığı nəhəng xərclərlə müqayisə etmək olar. Şübhəsiz, bu səbəbdəndir ki, indi hər birinin aktivlərinin dəyəri 1 trilyon ABŞ dollarına çatan "Apple" və "Amazon" kimi firmaların birgə gücü Rusiya kimi nəhəng dövlətin ümumi daxili məhsulunun həcmindən artıqdır. Bu isə bir daha elmin, beyin məhsulunun bazar iqtisadiyyatında qazana biləcəyi dəyərin nə qədər yüksək, nə qədər qeyri-məhdud olduğunu göstərir.




Hazırda cəmiyyətimizdə ən müxtəlif istiqamətlərdə elmi araşdırmalar aparılmaqdadır. Burada qarşıya qoyulmuş əsas vəzifə konkret problemlər üzrə elmi nəticələr əldə etmək və tətbiq olunmaq üçün iqtisadiyyatın müxtəlif sahələrinə təkliflər verməkdir. Ancaq son dövrlərdə elmin iqtisadiyyata tətbiqi baxımından kifayət qədər arzuedilən nəticələrin əldə olunmaması, yeni texnologiya və innovativ yeniliklərin, əsasən, xaricdən idxal edilməsi və bəzi sahələrdə müasir texnologiyadan baş çıxaran kadr çatışmazlığı hələ də özünü göstərməkdədir. Buna görə də dövlətimizin elmə və təhsilə ayırdığı bu qədər qayğı və diqqətin, xalqımızın elmə və maarifə olan tarixi bağlılıq ənənələrinin artıq hamımıza lazım olan gözəl bəhrələr verməsi üçün çox çalışmalı, yeni elmi ideyaların real həyatda tətbiqinə geniş meydan verməliyik. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamında da məhz əsas vəzifə kimi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaqla istedadlı gənclərin üzə çıxarılması, onların nailiyyətlərinin yeni sistemin tələblərinə uyğun qiymətləndirilməsi, yaradıcı düşüncə və inkişafa xidmət edən ən yaxşı layihələrin aşkarlanması, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək verilməsi qarşıya qoyulub. Bütün bunlar elm, təhsil və iqtisadi münasibətlərdə kök salmış bu yeni düşüncədə cəmiyyətimizin vaxtı çatmış sosial sifarişi kimi diqqəti cəlb edir. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vurğuladığı kimi: ***"Bundan sonra da muxtar respublikada elm və təhsilin inkişafı əsas istiqamət kimi götürüləcəkdir. Bütün təhsil pillələri üzrə infrastrukturun müasirləşdirilməsi və yaradılan şəraitdən səmərəli istifadə, innovasiyaların tətbiqi və ixtisaslı kadr hazırlığı diqqətdə saxlanmalı, elmin istehsalata tətbiqinə nail olunmalı, tədqiqatların əhatə dairəsi genişləndirilməli, Naxçıvan elmi mühitinin beynəlxalq aləmə inteqrasiyası sürətləndirilməlidir".***

✍ **Əli CABBAROV**

## Ailə, qadın və uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılır. Bu məqsədlə müxtəlif tədbirlər, monitorinqlər keçirilir.*

Görülən işlərin davamı olaraq aztəminatlı ailənin üzvü olan 8 qadının müvafiq peşə kurslarına cəlbi, 7 qadının işlə təmin olunması üçün məlumatları aidiyyəti orqanlara göndərilmişdir. Özünüməşğulluğun təmin edilməsi məqsədilə sosial qayğıya ehtiyacı olan şəxslərin əl işlərinin satışı təşkil olunmuşdur.

Şərur rayonunun Siyaqut kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilmişdir. Ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi ilə əlaqədar 1 ailəyə müvafiq köməklik göstərilmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 3 uşaq müəssisəsində, eləcə də Şərur və Sədərək rayonlarında yaşayan hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 12 uşağın yaşadığı evdə monitorinq keçirilmişdir.

Fevral ayında elektron məlumat bankına 1847 uşaq haqqında fərdi məlumatlar daxil edilərək uşaqların sayı 25 min 187 olmuşdur. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı 5 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmiş, müvafiq kateqoriyadan olan 43 uşağa Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorları tərəfindən "Keçinin qisası" tamaşası göstərilmişdir.

Şahbuz rayonunda fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı bu sahəyə məsul olan şəxslərin iştirakı ilə maarifləndirici seminar keçirilmişdir.

"Muzey günləri" çərçivəsində komitənin əməkdaşları Heydər Əliyev Muzeyində olmuşlar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### 2020-ci il "Könüllülər ili"dir

## Könüllülük bizim həyat tərzimizdir

*Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2019-cu il dekabrın 30-da "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" Sərəncam imzalayıb.*

Sərəncama əsasən gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilib. Sərəncamda qeyd olunur ki, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.





Könüllülük könüllü ruhu ilə yaşayan, daim cəmiyyət, onun ayrı-ayrı fərdləri üçün faydalı və zəruri işləri görməyi özünə mənəvi borc bilən insanların daxili hisslərinin məcmusudur. Bu elə bir hissdir ki, təşəbbüskarlıq hər zaman insanın daxilindən qaynaqlanır və onun icrası bütün fərdi maraqları geridə qoyur. Ona görə də könüllülüyü həm də xeyirxahlığın sinonimi kimi qəbul etmək mümkündür. Əgər nəzər salsaq, xalqımızın tarixində bunun saysız-hesabsız nümunələrini görə bilərik. Məsələn, ölkəmizdə cümhuriyyət dövründən əvvəl xeyli azərbaycanlı tələbəni xaricdə oxudan, paytaxt Bakıda xeyli sayda binalar tikdirən mesenatlarımız olub. II Dünya müharibəsində könüllü olaraq dəyərli ləl-cəvahiratını satan, yüz minlərlə Azərbaycan əsgərini soyuqdan qorumaq üçün əlcək, corab toxuyaraq cəbhəyə göndərən qəhrəman qadınlarımızın əməyi indi də unudulmayıb. Elə ötən əsrin sonlarında muxtar respublikamıza erməni daşnaklarının hücumu zamanı minlərlə naxçıvanlının könüllü batalyonların tərkibində sərhəd kəndlərimizi müdafiəyə qalxması, onların müxtəlif zəruri qida və məişət əşyaları ilə təmin edilməsi könüllülüyün ümumxalq səviyyəsində təcəssümü idi.

Qeyd edək ki, könüllülük təkcə müharibə şəraitində deyil, bütün dövrlərdə ictimai-siyasi proseslərin önündə olmaqla, Vətənə, cəmiyyətə, dövlətə, dövlətçiliyə töhfə verməkdir. Ən yeni tarixə nəzər saldıqda görərik ki, ötən əsrin 90-cı illərində bütün naxçıvanlıların könüllü olaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin ətrafında sıx birləşməsi könüllülüyün və həmrəyliyin ən böyük nümunəsi idi. Məhz bu nümunə Naxçıvanı erməni işğalından qorudu, Azərbaycanın gələcək müstəqilliyinin qorunmasına öz töhfəsini verdi.

Bu gün isə könüllülük yeni mərhələyə qədəm qoyub. Sevindirici haldır ki, indi ölkəmizdə, eləcə də muxtar respublikamızda könüllülük ənənələrinin yaşadılmasında biz, ilk olaraq gəncləri görürük. Hər il yüzlərlə könüllü gənc tərəfindən ətraf mühitin mühafizəsi, sağlam həyat tərzinin təbliği, milli dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən müxtəlif layihələr bunu ayani şəkildə özündə əks etdirir. Bütün bunlar isə onu göstərir ki, muxtar respublikamızda böyük bir könüllü ordusu var. Və bu ordunun üzvləri dövlətinə, xalqına, onun xoşbəxt gələcəyinə inanır. Bu gün ictimai həyatın müxtəlif sahələrində həyata keçirilən könüllülük layihələrində muxtar respublikamızda yaşayan və təhsil alan əcnəbi könüllüləri də görmək mümkündür. Bu isə o deməkdir ki, könüllü gənclərin bu və ya digər layihələrdə kütləvi iştirakları, cəmiyyətə faydaları hər kəs tərəfindən razılıqla qarşılanır və əcnəbilər də bu cür tədbirlərdə iştirak etməklə ümumi işə öz töhfələrini verməyə çalışırlar. Bütün bunları ümumiləşdirərək o nəticəyə gəlmək mümkündür ki, könüllülük artıq bizim həyat tərzimizdir. Çünki bu həyat tərzi bizim milli və mənəvi dəyərlərimizə əsaslanır.

✍ **Səbuhi HƏSƏNOV**

# Müasir Naxçıvanın zəngin idman ənənələri

## Məşqçi və idmançıların mükafatlandırılması diyarımızda idmana göstərilən diqqətin təzahürüdür

***Ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında cəmiyyətin bütün sahələri kimi, idman da inkişaf dövrünü yaşayır. İdmana və idmançılara göstərilən diqqətin bariz nümunəsi kimi 5 mart – Bədən Tərbiyəsi və İdman Günündə keçirilən “İdman festivalı”nın muxtar respublikada təşkili diyarımızda əsl bayram ab-havası yaratdı. “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən ilk dəfə təşkil olunan tədbirdə bir çox mütəxəssis və idmançı mükafata layiq görüldü. Onlarla görüşüb fikirlərini öyrəndik.***

42 ildir, dünyanın ən mükəmməl oyunu hesab edilən şahmatın sirlərini uşaq və yeniyetmələrə aşılayan ***Hüseyn Əliyev***in fikrincə, idman hər bir ölkənin, diyarın ictimai həyatında xüsusi yer tutur və bu gün idmanın inkişafı qazanılan nəticələrə gətirib çıxarır. Biz məşqçilər hər zaman böyük qələbələrdən sonra görürük ki, idmanla məşğul olmaq istəyənlərin sayı daha da artır, uşaq və yeniyetmələr idman bölmələrinə üz tutur, onlar da qələbə qazanmaq üçün mübarizə aparırlar. Onlar özlərinə kumir kimi həmin idmançıları seçirlər. Təbii ki, bu, gözəl haldır. Biz məşqçi və idmançıların üzərinə isə yalnız göstərilən etimadı doğrultmaq düşür. Sevindirici haldır ki, Naxçıvanda idmanın kütləviliyi üçün mühüm işlər görülür, dövlət idman siyasəti də məhz bu istiqamətdə aparılır.



Respublika dərəcəli şahmat hakimi bütün bu uğurların səbəbini yalnız yaradılan şəraitlə əlaqələndirir: “Şahmatı digər növlərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri idmançıların sakit və təmkinli olmasıdır. Keçirilən yarışlarda, turnirlərdə onlara qələbəni qazandıran məhz bu amildir. Son illər bu növə marağın artmasının əsas səbəbi həm məşqçi-müəllimlər, həm də idmançılar üçün hər bir imkanın yaradılmasıdır. Uğur qazanan idmançılar, eləcə də onların məşqçiləri daim diqqətdə saxlanılır, mükafatlandırılır. Mənə verilən “Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi” adı isə tək mənim deyil, bütün federasiyamızın uğurudur”.

Yetirmələri dəfələrlə Azərbaycan, beynəlxalq səviyyəli yarışların qalibi və mükafatçısı, dünya çempionatının iştirakçısı olan ***Hikmət Hüseynov*** 29 ildir, sərbəst güləş idman növü üzrə məşqçidir. Məşqçilik karyerasını davam etdirən və Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin dərs hissə müdiri olan 52 yaşlı mütəxəssis 5 mart – Bədən Tərbiyəsi və İdman Günündə “Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi” adına layiq görülüb. O deyir: “Azərbaycanda gənclər siyasətinin mühüm tərkib hissəsi olan idmanın inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olub. Ulu öndər Azərbaycanın beynəlxalq aləmdə tanıdılması və təbliği baxımından idmanın rolunu yüksək qiymətləndirir, idmançılara böyük qayğı ilə yanaşırdı. Məhz bu diqqət və qayğı sayəsində ölkəmiz qısa bir müddətdə dünyanın idman dövlətlərindən birinə çevrildi, Azərbaycan gəncliyi beynəlxalq arenada bir-birindən parlaq qələbələrə imza atmağa başladı”.



Məşqçi-müəllim Hikmət Hüseynov muxtar respublikada da idmanın inkişafına göstərilən diqqət və qayğını vurğulayaraq bildirdi ki, bu sahədə qazanılan nailiyyətlər, eyni zamanda diyarımızın inkişaf səviyyəsini, iqtisadi potensialını əks etdirən mühüm meyarlardan biridir. Bu baxımdan Naxçıvanın dinamik inkişafı idmanda qazanılan uğurlarla ahəngdarlıq təşkil edir. Gələcək nəsillərə miras qoyulan idman ənənəmizi, dövlətimizi, bayrağımızı, doğma Naxçıvanımızı bu gün dünya arenalarında layiqincə təmsil edən idmançılarımız var.

***Humay Cəfərova*** 5 ildir, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi İdman Cəmiyyətində məşqçi-müəllim vəzifəsində çalışır. Karate üzrə I Dan qara kəmər ustası, beynəlxalq turnirin qalibi olan və “Azərbaycan Respublikasının İdman ustası” adına layiq görülən 29 yaşlı məşqçinin fikrincə, qarşıdakı illərdə muxtar respublikanı olimpiya oyunlarında təmsil edəcək gücə malik qızlar yetişməkdədir: “Son illər muxtar respublikada idmana göstərilən diqqət qızların bu sahəyə axını ilə nəticələnib. İndi bütün idman növlərində qızlar da var, onlar məşqlərdə iştirak edir, keçirilən yarışlarda böyük uğurlara imza atırlar. Bu, muxtar respublikada qadınlara, qadın idmanına göstərilən qayğı və etimadın, inamın bəhrəsidir. Hazırda karate idman növü ilə 100-dən artıq qız idmançı məşğul olur. Federasiyanın əsas məqsədi bu növü qızlar arasında kütləvi hala gətirməkdir. Yarışlarda və turnirlərdə iştirak edən qız idmançılarımız uğurlu nəticələr əldə edirlər ki, bu da gələcəkdə onların olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında iştirakına böyük yol açır. “İdman ustası” adına layiq görülmək həm də böyük məsuliyyətdir. İndi daha əzmlə çalışıb bu ada layiq olmağa və Naxçıvan idmanı üçün istedadlı idmançıların yetişməsinə çalışacağam”.



“Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi” adına layiq görülənlərdən biri də Naxçıvan Dövlət Universitetinin baş müəllimi ***Nazim Əliyev***dir. Yetirmələri dəfələrlə voleybol üzrə ölkə səviyyəli yarışların qalibi və mükafatçısı olub. Nazim müəllim deyir: “İdman festivalı” bir daha onu təsdiq etdi ki, Naxçıvan Muxtar Respublikasında idman son illərdə çox sürətlə inkişaf edir. Biz müəllimlər çalışırıq ki, təhsil ocaqlarında və idman zallarında yetişdirdiyimiz yeniyetmə və gənclər müstəqil dövlətimizi möhkəmləndirsin, inkişaf etdirsinlər. Gənclərimizin nailiyyətləri, o cümlədən naxçıvanlı idmançılarımızın dünya arenalarında uğuru bizləri sevindirir, qürurlandırır”.



41 illik pedaqoji təcrübəsi olan Nazim Əliyev bizimlə söhbətində qeyd etdi ki, indi Naxçıvanda idmana, idman hərəkatına, idman siyasətinə xüsusi diqqət yetirilir. Bu gün idmançılarımızın daha çox uğur qazanması onu göstərir ki, gənclərimizdə vətənpərvərlik hissi, Vətənə məhəbbət, sevgi hissi təbiidir, yüksəkdir. Bu da Azərbaycan gəncliyinin sağlam ruhda böyüməsi deməkdir.

I Dan qara kəmər ustası, eyni zamanda karate-do üzrə Azərbaycan birinciliklərinin mükafatçısı olan ***Nizami Bağırov***un yetirmələri məşqçilərinin yolu ilə gedir. Sədərək Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru, məşqçi-müəllim 6 ildir, bu sahədə çalışır və yetirmələri kifayət qədər uğura imza atıblar: “İdman tariximizə nəzər yetirsək, bütün uğurlarımızın məhz müstəqillik dövrümüzə təsadüf etdiyini görərik. Həmçinin muxtar respublikamızda idmana göstərilən diqqətin bəhrəsi olaraq qazanılan uğurlar da bu dövrü əhatə edir. “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı, “İdman festivalı”nın Naxçıvanda keçirilməsi, məşqçi-müəllimlər və idmançıların mükafatlandırılması diyarımızda bu sahəyə göstərilən qayğının bariz nümunəsidir. Xüsusilə də, festival zamanı veteran idmançılarımızın diqqətdən kənarda qalmaması onu göstərdi ki, Naxçıvanın qədim idman ənənəsi var və bu ənənə ehtiramla qorunur. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin fəxri diplomu ilə təltif olunmağım həm də Karate-do Federasiyasının uğurudur”.



30 ildən çoxdur, cüdo ilə məşğul olan ***Azər Qənbərov*** idman ustası, beynəlxalq turnirlərin qalibi və mükafatçısıdır. “Azərbaycan Respublikasının Əməkdar məşqçisi” adına layiq görülən 56 yaşlı mütəxəssisin yetirmələri dəfələrlə Azərbaycan birinciliklərinin mükafatçısı olublar. Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbində çalışan Azər Qənbərovun fikrincə, Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında idmana dövlət tərəfindən göstərilən diqqət və qayğı nəticəsində məşqçi olmaq şərəfli bir peşəyə çevrilib: “Son zamanlar məşqçisi olduğum cüdo bölmələrinə uşaq, yeniyetmə və gənclərin axını bir daha göstərir ki, onlar idmanla müntəzəm məşğul olmaq istəyirlər. Muxtar respublikada idmanın inkişafı üçün hər bir şərait yaradılıb. Bu inkişaf gənc nəsli həm sağlam, möhkəm iradəli, həm də vətənpərvər kimi yetişdirmək məqsədini daşıyır”.



İdman ustası olan məşqçi qeyd etdi ki, Naxçıvanda idmanın inkişafı artıq sistemli xarakter daşıyır. Belə ki, yetişməkdə olan idmançıların fəaliyyəti təkcə bu sahə ilə məhdudlaşmır. Onlar möhkəm iradəli olmaqla yanaşı, həm də vətənpərvərlik ruhunda böyüyür, müxtəlif yarışlarda, beynəlxalq arenalarda Vətən sevgisi ilə mübarizə aparırlar. Təbii ki, uğurlar da dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. Məşqçilər adından bütün uğurlarımızı daim diqqətdə saxlayan muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

Cüdo üzrə keçirilən polislərarası Azərbaycan çempionatının qalibi olan ***Elvin Əliquliyev*** 11 ildir, məşqçi-müəllim kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin fəxri diplomuna layiq görülən 35 yaşlı məşqçinin yetirmələri dəfələrlə ölkə səviyyəli yarışların qalibi və mükafatçısı olub: “İştirak etdiyim yarışlarda, turnirlərdə Naxçıvanı, Azərbaycanı layiqincə təmsil etməyə çalışmışam. İndi də yetirmələrim hər zaman iştirakçısı olduqları yarışlarda Vətən sevgisi ilə mübarizə aparmağı aşılayıram. Əgər idmançının ruhunda vətənpərvərlik hissi varsa, o, istənilən rəqibə qalib gəlmək gücünə də malikdir. Bizim ən böyük sərvətimiz Vətənimizdir və ona xidmət etmək hər birimizin borcudur. Dövlətimiz isə hər zaman bu sahədə əməyimizi qiymətləndirir, mükafatlandırır. Naxçıvanda idmana olan diqqət, idmançılara, məşqçilərə göstərilən qayğını sözlə ifadə etmək mümkün deyil. “İdman festivalı”nın muxtar respublikamızda keçirilməsi tarixə yazıldı. Çalışacağıq ki, muxtar respublika rəhbərinin bizə göstərdiyi etimadı doğruldaq”.



***Rasim İsgəndərov*** gənc məşqçi olmasına baxmayaraq, yetirmələri dəfələrlə boks üzrə keçirilən Azərbaycan və beynəlxalq səviyyəli yarışların qalibi və mükafatçısı olublar. 8 ildir, Şərur Rayon Uşaq-Gənclər İdman Məktəbində çalışan gənc məşqçi-müəllimin kifayət qədər tələbəsi var. Onun dediklərindən: “Bu gün muxtar respublikamızda gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Naxçıvanda minlərlə yeniyetmə və gənc fəal şəkildə idmanla məşğul olur. Onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, yeni idmançı nəsli yetişir, müxtəlif idman növləri üzrə uğurların sayı daha da artır. Boks idman növünə də marağın artması yaradılan şəraitin nəticəsidir. Biz gənc məşqçilərin də məqsədi var-gücümüzlə çalışıb idmanın inkişafına öz töhfəmizi verməkdir. Göstərilən etimad və verilən mükafat isə gənc məşqçilər üçün əlavə stimuldur”.



“Azərbaycan Respublikasının İdman ustası” adına layiq görülən ***Əmrah Nağıyev*** zəngin karyeraya malikdir. 21 yaşlı atlet Azərbaycan qış birinciliyində üçüncü, Azərbaycan çempionatında ikinci, “Küləyə qalib gəl!” devizi altında “Bakı marafonu-2019” yarışında yeddinci, Gürcüstanın paytaxtı Tbilisidə VIII “Tbilisi marafonu”nda 7-ci və Türkiyə Cümhuriyyətinin Antalya şəhərində 15-ci beynəlxalq Runatolia marafonunda ikinci yerlərə layiq görülüb. Hazırda Azərbaycan yığmasının da üzvü olan Əmrah Nağıyevin ən böyük arzusu dünya və Avropa çempionluğunu Naxçıvana gətirməkdir: “İdman mənim üçün bir həyat tərzidir. Özümü bu sahədən kənarda təsəvvür edə bilmirəm. Çünki iştirak etdiyim yarışlarda bir məqsədim olur: doğulub böyüdüyüm Naxçıvanımı layiqincə təmsil etmək və Azərbaycan bayrağını dalğalandırmaq. Mübarizə apardığım yarışlara ciddi hazırlaşıram və daim fəxri kürsüdə mükafatçılar arasına düşməyə çalışıram. Uğurlarımdan sonra belə bir ada layiq görülmək qürurvericidir. Bundan sonra da çıxış edəcəyim yarışlarda mükafat qazanmağa, bu ada layiq olmağa çalışacağam”.



*5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr edilən “İdman festivalı”nın muxtar respublikamızda təşkili və idman mütəxəssislərimizin bu möhtəşəm tədbirdə mükafatlandırılması həm də əlamətdar hadisə kimi tarixin yaddaşına həkk olundu. Belə ki, 25 il bundan öncə məhz bu tarixdə ümummilli liderimiz Heydər Əliyev idman ictimaiyyətinin nümayəndələri ilə görüşərək onların fikirlərini dinləmiş, idmana olan dövlət qayğısının əsasını qoymuşdur. Həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 il bundan əvvəlki müvafiq Sərəncamı ilə 5 mart artıq ölkəmizdə “Bədən Tərbiyəsi və İdman Günü” kimi qeyd edilir. Təbii ki, belə mötəbər gündə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən fəxri adlara və mükafatlara layiq görülən məşqçi və idmançılarımızın nailiyyəti muxtar respublikada bu sahəyə göstərilən diqqətin, sürətli inkişafın və idman siyasətinin uğurlu yolda olduğunun bariz nümunəsidir.*

**✍ Ceyhun MƏMMƏDOV**

## Karateçilərimizin növbəti qələbəsi

*Bakı Şəhər Boks İdman Mərkəzində 11-ci “Baku Open” beynəlxalq karate turniri keçirilib.*



Yarışın birinci günündə böyüklər və veteranlar, mart ayının 6-da 16-17 yaşlı və 18-21 yaşlı gənclər, 7-də 14-15 yaşlı yeniyetmələr, ayın 8-də isə 6-13 yaşadək uşaqlar mübarizə aparıblar. Turnir bu dəfə dünya şöhrətli idmançı Rafael Ağayevin 35 illik yubileyinə həsr olunub. Fərdi və komanda yarışlarında Azərbaycanla yanaşı, Türkiyə, Malayziya, Misir, Gürcüstan, İsveçrə və Rusiyadan 672 idmançı iştirak edib.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 2 idmançısı da turnirdə mübarizə aparıb və qaliblər sırasına öz adlarını yazdırmağı bacarıb. Belə ki, tatami üzərinə çıxan 18-21 yaş qrupunda +84 kiloqram çəki dərəcəsində Aslan İsmayılov və 16-17 yaş qrupunda 55 kiloqram çəki dərəcəsində Rəşad Qasımov beynəlxalq turnirin bürünc medalını qazanıblar.

Sonda diplom və medallar verilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Şərur rayonunun Qarxun kəndində yaşamış Abbasova Şəhla Hüseyn qızının adına verilmiş JN-188A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 252